# İlham Əliyevin tolerantlıq və multikulturalizm modeli dünyada ən mükəmməl nümunədir



**Hazırda belə bir mülahizə var ki, siyasət elm olmaqla bərabər, həm də bir sənətdir. Siyasətin də alimləri, sənətkarları var. Bunlar o kəslərdir ki, bəşər cəmiyyətinin inkişaf qanunlarını dərindən öyrənmiş və öz siyasi fəaliyyətlərini həmin qanunlara uyğun qurmuşlar. Tarixi təcrübə göstərir ki, siyasəti elm kimi öyrənmək və mövcud vəziyyəti nəzərə almadan onu tətbiq etməyə çalışmaq sosial-iqtisadi inkişafın tempinin zəifləməsinə, durğunluğun baş verməsinə, cəmiyyətin aşınmasına gətirib çıxarır.**

Siyasətçi bir sıra mühüm xüsusiyyətlərlə xarakterizə olunur. Hazırda bunların ən mühümlərindən biri siyasi tolerantlıq hesab olunur. Tolerant sözü latıncadan tərcümədə "dözümlü, təmkinli" deməkdir. Elə siyasi tolerantlıq da başqalarının siyasi baxışlarına, ideoloji görüşlərinə, konsepsiyalarına dözümlü və təmkinli yanaşmaq deməkdir. Bu dözüm bəzən susmaq, bəzən də əsl natiqlik məharəti və dərin düşüncə hesabına ortaya qoyulur. Ayrıca siyasi xadimin həyat və fəaliyyətində tolerantlıq öz təzahürünü siyasi rəqiblərinin fikirlərinə qulaq asmaq qabiliyyətində, ona verdiyi reaksiyada, siyasi rəhbərlikdə ortaya qoyduğu idarəetmə prinsiplərində və qarşılıqlı olaraq səsləndirdiyi düşüncələrində özünü göstərir.

Ümumiyyətlə, belə bir həqiqət qəbul edilməlidir ki, mövqe baxımından Azərbaycanda hazırkı siyasi situasiya bütün müstəvilərdə tolerantlıq prinsipləri ilə idarə olunur, siyasi qərarların istiqamətlərindən asılı olaraq tolerantlıq daha dərin və konkret qata - multikulturalizmə qədər irəliləyir.

Müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin yaratmış olduğu siyasi irs bu gün bütün detalları ilə qorunur və zamanın tələbinə uyğun olaraq inkişaf etdirilir. Prezident İlham Əliyevin məqsədyönlü və peşəkar siyasət kursunu "daxili" və "xarici" olmaqla iki istiqamətə ayırmaq olar. Hər bir yönüm ayrı-ayrılıqda özünəməxsus keyfiyyətləri, tolerant və multikultural yanaşmaları, bu yanaşmalar fonunda öz təkrarsızlığı ilə seçilir.

Prezident İlham Əliyevin daxili siyasətdə göstərdiyi ən böyük siyasi tolerantlıq örnəyi müxalifət və iqtidar arasında olan dialoqdadır. Bu dialoq bir növ fikirlərin, təfəkkürlərin sərbəst güləşidir. Bunlardan ən qabarıq görünəni isə ifrat siyasi populizmdir. Mövcud ədəbiyyatda populizm kütlələr içərisində heç bir əsası olmayan vədlər, demaqoq şüarlar hesabına şöhrət qazanmaq fəaliyyəti kimi mənalandırılır. Əslində elə populizmin özü hər bir siyasi partiyanın fəaliyyətinin ayrılmaz komponentidir. Çünki elmi cəhətdən və potensiallar nəzərə alınaraq verilən vədlər hər hansı siyasi partiyanın işinə yaraya bilər.

Daxili siyasətdə tolerantlığın, daha dəqiq desək, multikulturalizmin digər bir istiqaməti ölkəmizdə yaşayan müxtəlif xalqların, millətlərin, din və dil daşıyıcılarının hüquq və azadlıqlarına bərabər münasibət və onların hər birinə Azərbaycan vətəndaşı kimi haqq etdikləri hüquq və azadlıqları verməkdədir. Bu, həm Azərbaycan qanunvericiliyinin, konstitusiyasının əsasıdır, həm də Prezident İlham Əliyevin ortaya qoyduğu siyasi iradənin nəticəsidir.

Bu gün Azərbaycanda yaşayan müsəlmanlar, xristianlar, yəhudilər, həm də digər inanclara sahib olan insanlar öz dini ibadətlərini sərbəst şəkildə həyata keçirir, Prezident İlham Əliyevin öz siyasi iradəsi ilə formalaşmış tolerant və multikultural cəmiyyətin imkanlarından yararlanırlar. Azərbaycanda heç bir dini konfessiyanın birinin digərindən üstünlüyü yoxdur.

Heydər Əliyev siyasi məktəbinin prinsiplərindən layiqincə bəhrələnmiş Prezident İlham Əliyev daxili auditoriyaya ünvanlanmış çıxışlarında da hay-küylü populizmdən uzaq, insanların şüurunun və psixologiyasının qəbul edəcəyi sadə ifadələrə üstünlük verən siyasətçidir. Daxili siyasətdə multikulturalizm prinsipləri də özünü bir neçə istiqamətdən göstərməkdədir. Belə ki, ölkəmizdə bu gün mehriban dostluq və qardaşlıq şəraitində yaşayan onlarla xalq və millətin nümayəndəsi var. Bunların içərisində hazırda öz müstəqil dövlətləri olan ruslar, ukraynalılar, yunanlar, gürcülər, ermənilər, yəhudilərlə yanaşı, ta qədimlərdə bu torpaqları özünə vətən seçmiş talışlar, ləzgilər, kürdlər, saxurlar, tatlar, tatarlar, xınalıqlılar vardır. Onların hər biri digərinə münasibətdə də tolernat və multikulturaldır. Bunun başlıca səbəbi isə onların yaşadıqları Azərbaycan dövlətində həyata keçirilən multikulturalizm siyasətidir. Bu siyasətin isə bu gün qarantı ölkə Prezidenti İlham Əliyevdir.

İstər qanunvericilik bazasında, istər siyasi iradədə, istər dövlət və vətəndaş cəmiyyəti institutları tərəfindən həyata keçirilən layihələrdə milli mənşəyindən və danışdığı dildən, həmçinin dinindən asılı olmayaraq, hər kəs bərabərhüquqludur. Hər kəsin hüquq və azadlıqları Azərbaycan Respublikasının vətəndaşı olaraq dövlət tərəfindən qorunur. Bütün bunlar isə siyasətdə tolerant və multikultural yanaşmanın göstəricisi və real təzahürləridir.

Prezidentin apardığı uğurlu xarici siyasətdə də siyasi tolerantlıq və multikulturalizmin təzahürlərini asanlıqla görmək olar. Azərbaycanın qlobal müstəvidə strateji mövqeyi çox əlverişli olduğundan belə bir vəziyyətdə təhlükəsizliyin və neytrallığın təmin edilməsi üçün çox diqqətli və dərindən düşünülmüş siyasət aparmaq lazımdır. Həm qonşu dövlətlərlə münasibətlər tənzimlənməli, həm də strateji müttəfiqlərlə və üzvü olduğumuz beynəlxalq təşkilatlarla qarşılıqlı anlaşmalar hər an yerli-yerində olmalıdır. Mövcud şəraitdə bütün bunları etmək siyasətçidən yüksək zəka, öncəgörmə qabiliyyəti və intellekt tələb edir.

Hazırda dünyamız qlobal problemlər və təhlükələrlə üz-üzədir. Son dövrlər regionumuzda və ətrafda baş verən hadisələr də göz qabağındadır. Azərbaycan xalqını bu təhlükələrdən hifz etmək məramı isə ölkə Prezidentinin üzərinə düşür. Son vaxtlarda bir çox ölkələrin müharibə meydanına çevrilməsinin əsas səbəblərindən biri, bəlkə də birincisi ölkə liderlərinin verdiyi bəyanatlar, beynəlxalq şəbəkəyə ünvanlanmış nitqlərdir. Bəzilərində isə əsas səbəb dövlət başçılarının müstəqil siyasət apara bilməməsidir.

Ancaq xalqının hər bir nümayəndəsinin marağını düşünən Prezident İlham Əliyev bütün fəaliyyət istiqamətlərində ölkə vətəndaşlarının taleyini prioritet qəbul edir. Prezident müsahibələrinin birində bunu çox səmimi şəkildə qeyd edir: "Biz Azərbaycanda səmimi siyasət yeridirik. Başqa sözlə, siyasətimizdə heç bir ikimənalılıq yoxdur - həm rəsmi görüşlərdə, həm bəyanatlarımızda, həm qəbul etdiyimiz qərarlarda biz daim ictimaiyyət üçün, eləcə də xarici tərəfdaşlarımız üçün düzgün, açıq siyasət yeridirik". Bu sözlər artıq İlham Əliyevin xarici siyasətdə nümayiş etdirdiyi tolerantlığın ən gözəl sübutudur.

Azərbaycan xarici siyasətində əməli şəkildə tolerantlıq və multikulturalizmi əks etdirməkdədir. Müxtəlif ölkələrdə ayrı-ayrı xalqların yaratmış olduğu maddi və qeyri-maddi mədəniyyət abidələrinin qorunması, onların dünyanın irsi kimi hifz olunması istiqamətində atılan addımlar da Azərbaycan dövlətinin xarici siyasətdə də tolerant və multikulturalizm tərəfdarı olduğunun göstəricisidir. Prezident İlham Əliyev tərəfindən yaradılan və ölkənin Birinci xanımı Mehriban Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun bu sahədəki fəaliyyəti dövlətin həyata keçirdiyi tolerantlıq və multikulturalizm siyasətinə ən gözəl örnəkdir. Fondun sədri Mehriban Əliyeva çıxışlarının birində söyləmişdir ki, "yarandığı ilk gündən Heydər Əliyev Fondu nəinki Azərbaycanın, eləcə də ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Biz bir sıra iri layihələr həyata keçirmişik. Bizim "Azərbaycan - tolerantlığın ünvanı" layihəmiz vardır. Bu layihə çərçivəsində həm müsəlman məscidləri, həm də xristian kilsəsi bərpa edilib, Azərbaycanda yaşayan yəhudi uşaqları üçün məktəb və mədəni mərkəz inşa olunub. Avropada biz Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpasında, bir sıra digər layihələrdə də iştirak etmişik. Mən bir daha qeyd etmək istərdim ki, bu layihəni çox vacib hesab edirəm. Çünki dünyəvi müsəlman ölkəsi olan Azərbaycan yalnız xristian aləminə aid müqəddəs yerlərin və tarixi-mədəni abidələrin bərpasında iştirak etmir, eyni zamanda, ümumdünya əhəmiyyətli abidələri bərpa edir. Bu, fondun siyasətidir və inanıram ki, məhz mədəniyyət, mədəni irs sadə olmayan bugünkü dünyanı birləşdirə bilər".

Göründüyü kimi, Prezident İlham Əliyev həm daxili, həm də xarici siyasətdə atdığı hər addımında tolerantlığı, multikulturalizmi əsas meyar kimi götürür və bu istiqamətdə dünya dövlətlərinə Azərbaycanı örnək kimi göstərir. Bunun nəticəsidir ki, hazırda Azərbaycanın multikulturalizm modeli və ölkəmizdə olan tolerantlıq mədəniyyəti dünya ölkələri tərəfindən maraqla qarşılanır və öyrənilir.

***Həbib MİSİROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı***